Hüseynova Günel Ehtiram qizi

# İNGİLİS DİLİ TƏLİMİNDƏ TEXNİKİ VASİTƏLƏRDƏN İSTİFADƏ

İstər ali, istərsə də orta təhsil müəssisələrində dərs aparan müəllimlərdən təlim metodlarını,üsul və vasitələrin təkmilləşdirmək, onun yenilənən formalarını, müstəqil işlərin müasir formalarını ön sırada saxlamaq tələb olunur.

Xarici dil müəllimləri təlimin texniki vasitələrindən istifadə imkanlarını, xarici dil dərslərində onun əhəmiyyətinin nəzəri əsaslarını öyrənməklə bərabər ,onların yerində istifadəsi,istifadənin texnikası və metodikasına yiyələnməlidirlər.

Təlimin texniki vasitələri tələbələrə vacib olan bacarıqları mənimsəmək üçün cox əhəmiyyətlidir.Texniki vasitələrin köməyi ilə tələbə akustik,vizual və audiovizual cihazlar, onların istifadəsinə dair elmi məlumatlara yiyələnir və dilin mənimsənilməsinə asanlıqla nail olurlar.Bundan əlavə texniki vasitələrlə əyani vasitələrin müqayisəsini vermək,onların müxtəlif şəraitdə yerində işlədilməsi imkanlarına yiyələnir.

Texniki vasitələrin istifadəsi zamanı müxtəlif didaktik materialları hazırlamağı və secməyi bacarmalıdırlar. Bu vasitələrlə davranma - prosess zamanı əsas məsələlərdən sayılır. İngilis dilinin mənimcədilməsində metodik tələblərə cavab verən kartoçkalarında hazırlanması vacibdir.

Əsrimiz elm və texnikanın sürətli inkişafı dövrünə təsadüf edir.İnformasiyanın həcmi getdikcə artır.Hətta ən sürətli oxu qabiliyyətinə malik olan mütəxəssislər belə yeni məlumatları sadəcə oxumaqla,yaxud sadə mütaliə yolu ilə tam mənimsəyə bilmirlər.

İnformasiyanın inkişafı elmi-texniki inkişaf ilə əlaqədardır. Müəllim müasir texnika vasitəsilə istər daxili,istərsə də xarici metodikalardan istifadəni rahat həyata kecirə bilir.Nitqin inkişafı üçün canlı danışıq dili əsas meyarlardan biridir. Bu zaman tələbə nümunəvi tələffüz, məntiqi vurğu, fasilə və sürəti canlı edir,duyur və özündə olan nöqsanları aradan qaldırmaq üçün muqayisələr apara bilir.

Təlimdə istifadə edilən müxtəlif texniki vasitələrdən ən məhsuldarı sosial şəbəkələrdə olan xüsusi saytlar, təlim saytları, canlı bağlantılarla telekörpü vasitələri hal-hazırda ən məhsuldar üsullardır. Bu baxımdan elektron materialların təlimdə istifadəsi daha uyğundur. Tələbələr qruplar halında,müəyyən mövzular haqqında debatlar təşkil edir.Bunu ölkədənkənar "dəyirmi stol" ətrafında sərbəst mövzy secimləri ilə həyata kecirirlər.Bu zaman eşitmə,dinləmə və anlama əsas meyarlardan sayılır. Debatlar zamanı müəyyən başlıqlar hazırlanır.Məsələn: " Günn mövzusu",Dünya bugün", " Əsrin gəncləri" və s.Hətta müəyyən bədii əsərlərin muzakirəsi də kecirilə bilər.Bu zaman müxtəlif əsərlərin müzakirəsini aparmaqda həmin adda çəkilən filmlər də faydalıdır. Xarici filmləri seyr edib,obrazları müəyyən istiqamətlərdə müzakirə etmək nitqin inkişafı üçün cox əhəmiyyətlidir.

Ingilis dili dərslərinin əsas texniki vasitələrindən biri ekranlaşdırılmadır.Müasir dövrdə dərslərin monitor və proyektorlarla aparılması bu nöqteyi nəzərdən daha faydalıdır.Cünki istər ana dili,istərsə də xarici dilin tədrisin görmə,eşitmə yaddaşın fəaliyyəti daha məhsuldardır. Dili öyrənən bu görüntülərə baxdıqca həm sozlərin tələffüzü,hansı zamanda hansı məkanda işlədilməsi üçün daha faydalı variantlara diqqət yetirir. Bildiyimiz kimi şifahi nitqdə mimikaların da danışığı,onun mənasını acıqlamaq üçün daha vacib anları olur.Bu da ən cox dialoqlarda təsadüf edilir.

Ekranlaşdırılan mövzuların da təlim materialları vardır.Təlim materialları göstərilmə formasına görə qrafik,əşyanın təsviri formasında ola bilər.Qrafik materialları dedikdə, cədvəl və sxemlər nəzərdə tutulur.Müxtəlif qrammatik mövzularla baglı cədvəllərlə zamanlar,onların növləri,sözönləri,onların işlədilməsi və s. Buna misal ola bilər.Belə cədvəl və qrafiklərdən kecirilmiş materialların təkrarlanıb yekunlaşdırılmasında istifadə daha məqsədə uyğundur.

Digər ekranlaşdırılmış materiallardan biri də xarici dilin mükəmməl öyrədilməsi üçün istifadə edilən ev oxusu materiallarıdır.Tələbənin yazılı nitqlə şifahi nitqi müqayisəli şəkildə mənimsəməsində ən faydalı metod bədii əsərlərin mövzusunda çəkilən bədii filmlərə baxmasıdır.Bu növ filmlər dilin öyrənilməsində gündəmdə istifadə edilən nitqin inkişafı üçün əhəmiyyətlidir.

Xarici dillərin öyrədilməsində tələbə təkcə hazır materiallardan istifadə etməməlidir. Tələbənin özünün də yradıçılığından istifadə etmək lazımdır.Məsələn istənilən mövzunun kecirilməsi ilə əaqədar həm müəllim,həm də tələbə sərbəst materiallardan istifadə etməlidir. Bura hər iki tərəfin düzəltdiyi slaydlar,foto xronikalar,alt yazısı ilə hazırlanan şəkilli filmlər və ya elə iştirakcısı özü olan şəxslərin vidio cəkilişləri daxildir.İstər qrammatik,istərsə də bədii mövzularla əlaqəli bir cox slaydların nümayişi tələbənin öyrəndiyi mövzu ilə əlaqədar başarıqlarının nümayiş etdirilməsi diqqət cəkməlidir. Hazırlanan materialın nümayişi zamanı tamaşaçı materilalı izlərkən mövzunu anlaması ,onun başlanğıc və nəticəsini seyr edərkən qavramalıdır.Material elə hazırlanmalıdır ki,hətta mövzudan xəbəri olmayan belə nümayiş etdiyi qısa metrajlı cəkilişə baxışdan nəticə çıxara bilsin.

Bildiyimiz kimi qeyri ixtisas fakültələrdə xarici dillərin tədrisi üç istiqamətdə gedir. 1.İngilis dili və onun qrammatikası. ( bura fonetika,morfologiya,sintaksis və leksikologiya aiddir) 2. Ev oxusu. 3.Qəzet materialları.

Birinci istiqamətdə hər bölməni praktiki surətdə müəyyən qrammatik mövzularla bağlı vidio materiallar,cədvəllər əhatə edir.Bundan başqa qrup halinda gecirilən kicik debatların da rolu qeyd edilir.Bu nitqin səlisliyinə,fikir,mülahizə inkişafina müsbət təsir göstərir.

İkinci istiqamət ev oxusu başlığı altında gedir.Bu hissədə nitqin inkıafı,söz bazasının artması və bədii dilə sahiblik əsas götürülür. Bu filmlərə baxış zamanı dil öyrənənin yaşı nəzərə alınmalıdır. Filmlərin mövzu seçimi olmalıdır.

Üçüncü istiqamət isə qəzet materiallarıdır.Tədris planında ayrılmış saat ərsində müəyyən qəzetlərdən parcaların oxunub tərcümə edilməsi,onların vasitəsilə mətbuat dilinə yiyələnməsi tələbənin cəmiyyət arasında rəsmi sərbəst fikir söyləyib danışıqlar aparması bacarığına köməkdir.Bu baxımdan müəyyən xəbərlərin monitorlardan izlənməsindən də istifadə etmək məqsədə uyğundur. Hətta siyasi biliyin artırılması üçün xəbərlərə baxdıqdan sonra elə o mövzuda debatlar da təşkil etmək olar.

Bütün yuxarıda sadalananlarla yanaşı dil öyrənənlərin müxtəlif mövzularda aparılan telekörpülərin də böyük əhəmiyyəti vardır.Müəyyən mövzularda telekörpü yaradıb, məsafədən asılı olmayaraq fikir mübadiləsi daha əhəmiyyətlidir.Bu zaman dilin istənilən sferasindan fikir söyləmək bacarığına yiyələnən tələbə istənilən anda və istənilən mövzuda sərbəst oz fikrin bildirə bilər. İstənilən məsafədən başqa dövlətlərin tələbələrinin həyat və fəaliyyətilə tanış olar,öz adət -ənənələrini bildiyi kimi başqa dövlətlərin də tarixi və ənənələriylə tanış olar.Bu da tələbələrin dünyagörüşünün artmasına böyük bir təkandır.

Xarici dilin öyrənilməsi zamanı linqafon otaqlarının da böyük əhəmiyyəti var.Adı cəkilən bütün texniki vasitələrin istifadəsində kütləvi,qrup halında fəaliyyətlər kimi fərdi texniki istifadəni də kənarda qoymaq olmaz.Bildiyimi kimi xarici dillər "listening ,speaking, writing , conversation" mərhələləri ilə öyrədilir. Bu üsulların arasında "listening " daha vacibdir. Bu texnikanın vasitəsilə eşıtmə və anlama inkişaf edir.Hətta ingilis dilini öyrənən linqafonlar vasitəsilə amerikan və britaniya ingiliscəsinin arasındakı fərqi asanlıqla başa düşür. Linqafonun əsas əhəmiyyəti ondan ibarətdir ki, eyni anda tələbələr fərdi məşğul olmaqla hər birinin başarıq və fəaliyyətini aşkarlamaq olur.Bu üsulla tələbənin eşıtmə və nəticə əldə etmə qabiliyyəti ozünü qabarıq göstərir.

Təlimdə texniki vasitələrdən danışarkən tədris ili ərzində tələbənin işlədiyi fərdi (sərbəst) işləri kənarda qoymaq olmaz. Hal-hazırda tələbələr semestr ərzində hazırladıqlar işləri yazı vasitəsilə təhvil verib, nəticəni şıfahi izah etməklə yerinə yetirirlər. Amma bu fərdi işləri də texniki vasitələrlə həyata kecirsələr daha səmərəli olar. Hər bir tələbə onun fərdi işləməsi üçün müəyyən edilmiş fərdi mövzunu slaydlarla işlərsə onun faydası olar. Cünki adi yazı qaydası ilə verilən fərdi işlərin təhvili zamanı hazırlanan iş ancaq müəllim və tələbə arasında müzakirə ilə qəbul edilir.Bu fəaliyyəti tələbə tərəfindən müəyyən edilmiş slaydlar vasitəsilə hazırlayıb nümayiş etdirsə, həmin mövzudan bütün qrup məlumat eldə edəcək. Bu həm vaxta, həm də səviyyəyə görə daha münasib olar.Tələbə bir fərdi iş nümayiş etdirməklə həm yaradıcı, həm də texniki vasitələrdən sərbəst işləmə bacarığına yiyələnər.

Texniki vasitələrin təlimdə əhəmiyyəti çox böyükdür.Ali təhsil zamanı bu texniki vasitələrlə bəhrələnməyin daha cox tələbələrə köməyi dəyər.Öz gələcək ixtisası ilə bağlı tələbə oxuduğu müddətdə gələcək fəaliyyəti ücün özünə təlim materialları toplaya bilər.Hər bir tələbə təhsil aldığı müddətdə özünə elektron arxiv yaradasa, bu onun gələcəkdə bir müəllim kimi fəaliyyəti üçün çox səmərəli olar.İxtisasını tədris etdiyi siniflərin şagidləri bu texniki arxivi həm müəllimlərinin keçmiş fəaliyyəti ilə tanış olar,əgər texnikadan istifadə də dəyişiklik olarsa onlar o fərqi elə həmin dəqiqə biləcəklər, bu da texniki variativliyin inkişafina təkrar baxış kimi qiymətləndiriləcək.

Beləliklə, dövlətimizn, gənclərimizin inkişafinda təhsilin, onun inkişaf metodlarının faydaları əsas meyarlarımızdır. Təhsilin inkişafi və dövlətə sözün əsl mənasında yaxşı ixtisasçı yetirməkdə inkişafda olan bütün metodlardan istifadə edilməlidir. Bu istiqamətdə təhsil alan tələbə,gələcəyin ixtisasçısı həm ölkə daxilində, həm də xarici dövlətlərdə vətənimizi, xalqımızı tam mənada təbliq edə bilər.

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**


1.Əliyev Ə.Kompyuter oyrətmə obyektiv təlim vasitəsi kimi.1986.
2.Əsədov R.Təlimin texniki vasitələrindən səmərəli istifadə edək. 1984.
3.Городилова Г.Г. Обучение речи и технические средства.Москва.1979.



**Açar sözlər :** təlim, texniki vasitələr, təhsil, telekörpü, slayd, sosial inkişaf, dəyər,
**Ключевые слова:** обучение, технические средства, образование, телеконференция, слайд, социальное развитие, ценность,
**Keywords:** teaching, technical equipment, education, teleconference, slide, social development, valuation


## РЕЗЮМЕ


Основной обязанностью каждого учителя является подготовка высококвалифицированных специалистов в современном эпохе. Развитие нашего государства, применение всех видов образования к обучению сегодня является важным фактором его развития.

В этой статье рассматриваются эти методы и их применение. В статье дано виды технических средств, их использование и значение. Кроме этого обсуждено использование этих упражнений при обучении иностранных языках.

Существует множество технических средств: компьютеры, проекторы, сайты социальных сетей и было показано причины их использования. Даже во время тренингов подчеркивается, что помимо технических дебатов будут выпускаться короткие фильмы. Все это можно назвать основным критерием по развитию обучения.


## SUMMARY


The main duty of each teacher is to prepare highly qualified specialists in the modern era. The development of our state, the application of all types of education to training today is an important factor in its development.

This article discusses these methods and their application. It was written the types of technical means , their using and value. Besides these it was given using of these exercises in teaching foreign languages.

There are many technical tools: computers, projectors, social networking sites and it was shown the reasons for their using. It consists of slides, video-conferencing , personalized students, their realizations and their value. Even during the trainings, it is emphasized that in addition to technical means, debates groups will produce of their short films . All this can be called the main measure for the development of learning.


RƏYÇİ: d0s.S.Abbasova